**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**ELŞAD ALTAY OĞLU BAĞIROV**

# ABŞ - RUSİYA MÜNASİBƏTLƏRİ

# (1991-2005-CI ILLƏR)

**İxtisas: 5502.01 - Ümumi Tarix**

**tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün**
**təqdim olunan dissertasiyasının**

**A V T O R E F E R A T I**

**BAKI-2015**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **M.B.FƏTƏLİYEV**
tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **İ.M.MƏMMƏDOV**
tarix üzrə elmlər doktoru, professor
**M.S.HƏSƏNOV**
tarix üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 52 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "_*19*_"_12_ 2015-ci il tarixli iclasında saat ___$^{00}$ da keçiriləcəkdir.

**Ünvan:** AZ-1148, Bakı şəhəri, Z. Xəlilov küçəsi., 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "_____"___________2015-ci il tarixində göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor** **S. Y. SÜLEYMANOVA**

## DİSSERTASİYA İŞİNİN ÜMUMI SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** "Soyuq müharibə" illərində beynəlxalq münasibətlərin forma və məzmununun xarakterini iki fövqəldövlət müəyyən edirdi: SSRİ və ABŞ. Bu iki dövlət arasındakı münasibətlərin səviyyəsi sülh və beynəlxalq təhlükəsizliyin barometri funksiyasını yerinə yetirirdi. Əksər hallarda bu münasibətlər geniş məsələlər spektri üzrə qarşıdurma xarakteri daşıyırdı. Bu qarşıdurmada SSRİ obyektiv və subyektiv səbəblər üzündən məğlub tərəf oldu. ABŞ qalib kimi fövqəldövlət statusunu aldı. Nəticə etibarı ilə beynəlxalq münasibətlər sistemində də kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi. Yeni dünya nizamı yarandı. Dünya ABŞ-ın simasında birqütblü məzmun aldı. Yeni geosiyasət reallıq kontekstində SSRİ-nin varisi olan Rusiya heç də bərabərhüquqlu rəqib statusuna malik olmadı. Keçən əsrin 90-cı illərində Rusiya bütün parametrlər üzrə zəif dövlət idi. Rusiya fövqəldövlətin varisi kimi regional güc mərkəzi potensialına belə malik deyildi. Təsadüfi deyildir ki, bu dövlətin birinci xarici işlər naziri A. Kozırev ABŞ qarşısında hər hansı bir məsələyə etiraz etmək iqtidarında olmadığına "mister yes" ("cənab hə") ləqəbini almışdı. Buna baxmayaraq, Rusiya dünyanın 1/8 quru ərazisinin sahibi, Mərkəzi Avropadan başlamış Sakit okeana kimi 9 min km məsafədə 14 ölkə ilə sərhədə malik idi. Qaz potensialına görə dünyada birinci, neft ehtiyatlarına görə birinci beşlikdə yer alırdı. Ən əsası odur ki, nüvə-raket potensialına görə Rusiya ABŞ ilə paritet imkanlara malik idi və elə bu silah ilə əks tərəfi tamamilə məhv edə bilərdi. Əlbəttə, əgər Rusiya belə bir addım atsa idi, onda qısa bir müddət ərzində ABŞ əks zərbə endirərək qarşı tərəfi eyni aqibətlə üzləşdirəcəkdi. Belə vəziyyət hazırki dövrdə də davam edir. Bu reallıqlar fonunda ABŞ-Rusiya münasibətlərinin geniş spektrinə dair kifayət qədər mürəkkəb məsələlərin araşdırılması təkcə elmi deyil, həm də böyük siyasi aktuallıq kəsb edir və şərtləndirən mühüm parametrlər baxımından ikitərəfli əlaqələrin xarakterini ifadə edən məsələlərə diqqəti cəlb edədir. 1990-cı illərin əvvəlində Rusiya prezidenti Boris Yeltsin və xarici işlər naziri Andrey Kozırev Rusiyanın xarici siyasət konsepsiyasında ABŞ-la əlaqələri strateji tərəfdaşlıq münasibətləri kimi müəyyən etdilər. Rəsmi Moskva ABŞ-i "model, donor, dost" kimi qəbul edirdi. Qərbin şəksiz lideri olan ABŞ yeni Rusiyanın "təbii müttəfiqi" kimi nəzərdən keçirilirdi.

ABŞ-da Corc Buş (ata) və sonra Bill Klinton administrasiyaları da adekvat davranışın daşıyıcısı idi. Tərəflərin davranışında “qalib-məğlub” epitetinə uyğun hərəkətlərdən yayınmaq tendensiyası üstünlük təşkil edirdi. 1993-cü ildən sonrakı dövr ABŞ-ın Rusiyanın daxili və xarici siyasətinə təsirinin artması ilə xarakterizə edilir. Başqa sözlə, ABŞ-Rusiya münasibətlərində illüziyaların boşa çıxması və tərəflərin qarşılıqlı surətdə artan məyusluq dövrüdür və hətta bu zaman “soyuq sülh” barədə bəyanatlar səslənirdi. Rusiyanın müstəqil xarici siyasət aparmağa cəhd göstərdiyi fonda NATO-nun Şərqə doğru genişləndirilməsi kursunu həyata keçirməsi ikitərəfli münasibətlərdə etimadsızlıq mühitinin formalaşmasını şərtləndirən əsas amilə çevrilmişdi.ABŞ-Rusiya münasibətlərində transformasiya bu ölkələrdə siyasi vəziyyətin dəyişməsi təsiri altında baş verdi. Rusiyada siyasi elitanın antiqərb meylli hissəsi öz mövqeyini gücləndirdi ki, bu da Andrey Kozırevin xarici işlər naziri vəzifəsindən çıxarılmasına səbəb oldu. Eyni zamanda Birləşmiş Ştatların özündə siyasi qüvvələrin nisbətində dəyişikliklər baş verdi. Konqressin respublikaçıların nəzarəti altına keçməsi ilə “yeni soyuq müharibə” siyasətinin formalaşması üçün münbit şərayət yaranmış oldu. Rusiya prezidenti Vladimir Putin və ABŞ prezidenti Corc Buşun (oğul) birinci prezidentlik müddəti dövrünə ikitərəfli münasibətlərdə soyuqluq elementlərinin artma tendensiyası xarakterik idi. Tərəflər milli maraqların müdafiəsi istiqamətində qarşılıqlı güzəştlərdən imtina siyasətinə üstünlük verir, praqmatizmə istinad edirdilər. Rusiyanın 2000-ci ildə Çeçenistanda apardığı müharibə isə onsuz da korlanmış ABŞ-Rusiya münasibətlərinə izafi gərginlik elementləri əlavə etdi. Rusiya ABŞ və NATO-nu Yuqoslaviyadakı bombalamasına görə tənqid edirdisə, rəsmi Vaşinqton “Çeçenistan müharibəsi”ni əsas götürüb, rəsmi Moskvanı total insan hüquqlarını pozmaqda mühakimə edirdi. Tərəflərdən heç biri digərinin arqumentini qəbul etmək istəmirdi və ya bacarmırdı.Obyektivlik naminə onu da qeyd edək ki, 2001-ci il 11 sentyabrda ABŞ-a qarşı törədilən beynəlxalq terror aktlarından sonra Rusiya dərhal ABŞ-a dəstəyini bildirdi və antiterror mübarizəyə qoşuldu. Bu zamandan başlayaraq ABŞ-Rusiya münasibətlərində nəzərəçarpan istiləşmə başlandı. Daha

dəqiq desək, 2001-2005-ci illər ərzində ikitərəfli münasibətlərdə ciddi dəyişikliklər baş verdi:

– Strateji hücum silahlarının ixtisar edilməsi barədə imzalanmış müqavilə iktərəfli münasibətlərdə etimad mühitinin formalaşması mənafeyinə xidmət göstərdi;

– Rusiya ABŞ-ın Raket Əleyhinə Müdafiə Sistemindən çıxmasını tanıdı;

– Rusiya NATO-nun Şərqə doğru genişlənməsinə qarşı tədbirlər görmədi;

– ABŞ-ın Qafqazda və Orta Asiyada hərbi iştirakı məsələsinə Rusiya isterik reaksiya vermədi. Heç şübhəsiz, bu davranış obyektiv və subyektiv səbəblərdən qaynaqlanırdı. Ən başlıcası, Rusiya SSRİ-nin varisi idi, onun analoqu deyildi. Zənnimizcə, əlavə şərhə ehtiyac yoxdur. Bütün yuxarıda səslənən reallıqlar dissertasiya mövzusunun kifayət qədər aktual bir mövzuya həsr olunduğunu təsdiqləyir. "ABŞ-Rusiya münasibətləri 1991-2005 ci illər" mövzusunun həm tarixi – elmi, həm də siyasi-elmi aktuallıq daşdığını göstərir.

**Tədqiqatın obyektini** ABŞ və Rusiyanın qarşılıqlı münasibətləri təşkil edir.

**Tədqiqatın predmetini** ABŞ və Rusiyanın siyasi-diplomatik, ticarət-iqtisadi və humanitar sahələrdə münasibətləri və onların reallaşdırma mexanizmləri təşkil edir.

**Tədqiqatın xronoloji cərçivəsi** 1991-2005-ci illəri əhatə edir. Bu dövr "soyuq müharibə"nin başa çatması və yeni beynəlxalq münasibətlər sisteminin təməlinin qoyulması və inkişaf istiqamətlərinin formalaşması ilə xarakterizə edilir. Qeyd olunmuş xronoloji çərçivədə ABŞ-Rusiya münasibətləri fərqli inkişaf mərhələlərindən keçmişdir. "Soyuq müharibə" dövründə dünya siyasətinin nəbzi SSRİ-ABŞ münasibətlərindən birbaşa asılı olaraq döyünürdüsə, eyni yanaşmanı ABŞ-Rusiya münasibətlərinə aid etmək mümkün deyildir. Tədqiq edilən dövrdə bu iki dövlətin münasibətlərinin xarakteri tərəflərdən birinin "soyuq müharibə"dən qalib (ABŞ), digərinin isə məğlub (Rusiya) çixdığı reallığından qaynaqlanmışdır. Bəzi hallarda ABŞ və Rusiya arasındakı münasibətlərin daha dolğun şəkildə əks etdirilməsi üçün qeyd edilən xronoloji çərçivədən qismən kənaraçıxmalara yol verilmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Dissertasiyada ilk növbədə ABŞ-Rusiya münasibətləri və ümumən beynəlxalq siyasət məsələləri üzrə

ixtisaslaşmış məşhur Rusiya tədqiqatçılarının əsərlərindən istifadə edilmişdir. Bu tədqiqatçıların bir qismi hesab edirdi ki, Boris Yeltsinin prezidentliyi dövründə ABŞ-Rusiya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qalxmaq potensialına malik olmamışdır. Bu mövqeni müdafiə edən tədqiqatçılar sırasında V.A. Kremenyuku[1], A.İ. Utkini[2], T.A. Şakleinanı[3] və başqalarını göstərə bilərik. Eyni zamanda həmin tədqiqatçıların rəyinə görə, 1990-cı illərin əsas nailiyyəti SSRİ və ABŞ arasında mövcud olan münasibətlərin qarşıdurma modelindən imtina, ikitərəfli əlaqələrdə çoxsaylı problemlərin olmasına baxmayaraq, əməkdaşlıq üçün potensialın saxlanılması olmuşdur. Bir sıra tədqiqatlarda ikitərəfli münasibətlər dünyada baş verən qlobal transformasiyalar kontekstində təhlil olunmuşdur. Xüsusilə də çoxqütblü dünya və enerji təhlükəsizliyi prizmasından ABŞ-Rusiya münasibətlərinə qiymət verilməsi və müvafiq nəticələrin hasil olması belə tədqiqatların əsas qayəsini təşkil edir. Belə yanaşmalar D. Trenin[4] başda olmaqla ABŞ-ın Karnegi Mərkəzinin Rusiya nümayəndəliyinin ekspertləri, habelə S.M. Roqovun[5], E.Y.Batalovun[6], P.E.Smirnovun[7], V.V. Soqrinin[8], V.L. Malkovun[9], V.

---

[1] Кременюк В.А. Внешняя политика США на рубеже веков// США и Канада, ЭПК, 2000, № 5, с.3-15; Кременюк В.А. Международные конфликты: проблемы управления и контроля. М.: ИСКРАН, 2006, 245 с.

[2] Уткин А.И. Американская стратегия для XXI века. М., Логос, 2000, 272 с.; Уткин А.И. Единственная сверхдержава. М.: Алгоритм, 2003, 575 с.

[3] Шаклеина Т.А. Россия и США в новом мировом порядке. Дискуссии в политико-академических сообществах России и США (1991-2002). М.: Институт США и Канады РАН, 2002; Шаклеина Т.А. Россия и США в мировой политике. М.: Аспект Пресс, 2012, 272 с.

[4] Trenin D. Reading Russia Right // Carnegie Endowment. Policy Brief No. 52: Special Edition, October 2005.

[5] Рогов С.М. Россия и США в многополюсном мире // США: экономика, политика, идеология. М.: 1992, № 10, с.15-27

[6] Баталов Э.Я. Русская идея, американская мечта. М.: Прогресс-традиция, 2009, 384 с.

[7] Смирнов П.Е. Восточная Европа во внешнеполитических приоритетах США. М.: ИСКРАН, 2009, 144 с.

[8] Согрин В.В. Демократия в США. От колониальной эры до XXI века. М.: Весь мир, 2011, 368 с.

Starodubovun[10], V. İ. Batyukun[11], S.M. Samuylovun[12] və digər müəlliflərin[13] tədqiqatları üçün xarakterikdir.

Rusiya tədqiqatçıları, əsasən, ABŞ-Rusiya ikitərəfli münasibətlərinin geniş spektrinə dair məsələləri araşdırmağa üstünlük versələr də, ABŞ ekspertləri əksər hallarda rəsmi Vaşinqtonun Rusiya ilə bağlı nüfuz və təsir məsələlərini araşdırmışlar. Bu yanaşmanın əsas səbəbi onların ümumən ABŞ-Rusiya münasibətlərinə "assimmetrik əməkdaşlıq" kimi qiymət vermələri ilə bağlı idi. Məsələn, ABŞ tədqiqatçısı Stiven Koen[14]ABŞ-ın Rusiya siyasətinə tənqidi yanaşaraq sübut etməyə çalışmışdır ki, Rusiyanın dezinteqrasiya reallığı ilə üz-üzə qalmasında bu amilin rolu böyükdür. ABŞ başda olmaqla Qərbin Rusiyaya iqtisadi yardımları ilə bağlı məsələləri Canin Vedel[15], Con Oldin-Smi[16], Marşal Qoldman[17], Andrey Şleyfer[18] və

---

[9] Мальков В.Л. Россия и США в XX веке: очерки истории международных отношений и дипломатии в социокультурном контексте. М.: Наука, 2009, 235 с.

[10] Стародубов В. Россия и США. Глобальная зависимость. М.: Молодая Гвардия, 2004, 283 с.

[11] Батюк В.И. Советско-амерканские и российско-американские двусторонные режимы (1945-2010). М.: Lap Lambert Academic Publishing, 2011, 486 с.; Батюк В.И. Трудное партнерство. Двусторонные режимы и институты в российско-американских отношениях после окончания «холодной войны». М.: Промотей, 2008, 212 с.

[12] Самуйлов С.М. Внешнеполитический механизм США: эволюция, реформирования, проблемы. М.: Прометей, 2009, 517 с.

[13] Россия в изменяющемся мире. Под редакцией В.А.Гусейнова. М, Красная звезда, 2008, 168 с.; Россия между Западом и Востоком: мосты в будущее. (Коллективная работа ИСКРАН) М.: ИСКРАН, 2003, 512 с.; Шумилин А.И. Энергетическая стратегия России и США на Большом Ближнем Востоке. М.: Международные отношения, 2009, 168 с.

[14] Cohen S. Failed Crusade: America and the tragedy of post-Communist Russia. New York. 2000.

[15] Wedel J. Collision and Collusion. The Strange case of western aid to eastern europe. Macmillan. Wash. 2001.

[16] Olding-Smee J. IMF and Russia in the 1990s. IMF working paper WP/04/155. August 2004.

[17] Goldman M. The Piratization of Russia. Routledge. 2003.

[18] Shleifer A. A normal country. Russia after communism. HUP. London. 2005.

Mark Mediş[19] öz əsərlərində tədqiq etmişlər. Bu mövzu ABŞ-ın REND Korporasiyası[20] kimi aparıcı analitik mərkəzinin, və Beynəlxalq Münasibətlər üzrə Şuranın (BMŞ) apardığı tədqiqatların əsas istiqamətlərindən biri olmudur. BMŞ "Rusiyanın düzgün olmayan istiqaməti: ABŞ nəyi etməlidir və etməyə borcludur"[21]adlı geniş məruzəsini dərc etdirmişdir.

Dissertasiyanın şərh edilməsi prosesində tədqiqat obyektinin mövzusuna həsr edilmiş Azərbaycan alimlərinin əsərlərindən istifadə edilmişdir.

H.M. Paşayevin "Bir səfirin manifesti" kitabı[22] tədqiq edilən elmi problemin bir sıra məqamlarına aydınlıq gətirilməsi baxımından olduqca dəyərlidir. Müəllifin fikrincə, 11 sentyabr hadisələrindən sonra ABŞ-Azərbaycan münasibətlərində mühüm keyfiyyət dəyişiklikləri baş verdi. 1992-ci ildən Azərbaycan cəmiyyətinin haqlı narazılığına səbəb olan "907-ci düzəliş" tamamilə ləğv edilməsə də onun təsiri öz qüvvəsini itirdi.

Ə.M. Həsənovun müəllifi olan monoqrafiyalarda[23] Azərbaycan Respublikasının müstəqillik dövründə xarici siyasət kursunun əsas istiqamətlərindən biri olan Avropa dövlətləri və ABŞ ilə həyata keçirdiyi diplomatik münasibətlərlə əlaqədar məsələlər, ölkənin beynəlxalq münasibətlər sisteminə daxil olması və planetin geosiyasi xarakteri tədqiq edilib.

---

[19] M.Medish. Confidential report on USAID Programs Supporting Commercial Law and Other Legal Reform in the Russian Federation. Washington, D.C. September 1996.

[20]www.rand.org/content/dam/rand/pubs/monograph_reports/2007/MR1442.pdf; www. rand. org/content/dam/rand /pubs/monograph_reports/2005/MR1314.pdf

[21] "Russia's Wrong Direction: What the U.S. Can and Should Do" // Council on Foreign Relations Independent Task Force Report No.57. CFR. 2006.

[22] Paşayev H.M. Bir səfirin manifesti. Bakı: Şərq-Qərb, 2007, 248 s.

[23] Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996) Bakı: Elm, 2000, 368 s.; Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752 s; Həsənov Ə. Geosiyasət. Dərslik. Bakı: Aypara-3, 2010, 604 s.

E. Nəsirovun monoqrafiyaların[24] ABŞ və Azərbaycan arasındakı münasibətlər siyasi, ticari-iqtisadi və humanitar əlaqələr prizmasından, həmçinin, rəsmi Vaşinqtonun beynəlxalq terrorizmə qarşı mübarizənin strategiyası məsələləri və onların reallaşdırılması istiqamətləri elmi analiz müstəvisində tədqiq edilmişdir.

**Tədqiqat işinin mənbə bazası.** Dissertasiya işi yazılarkən zəngin və ən mötəbər mənbələrdən istifadə edilmişdir. Həmin mənbələri bir neçə qrupa bölmək olar: çap olunmuş rəsmi media sənədlər; Azərbaycan Respublikası dövlət xadimlərin əsərləri və arxiv materialları. Dissertasiya işin Rusiya və ABŞ-ın rəsmi dövlət sənədləri, beynəlxalq təşkilatların (BMT, BVF və s.) sənədləri, o cümlədən Rusiya və ABŞ-ın qanunvericilik və normativ aktları, strateji sənədlər (məsələn, ABŞ-ın milli təhlükəsizlik strategiyası), hökumətlərarası sazişlər, ictimai bəyanatlar (press-relizlər) əsasında yazılıb. Mənbələrin sırasında ali icra hakimiyyətinin aparıcı fiqurlarının, amerikalı politoloq və iqtisadçıların, rusiyalı diplomatik nümayəndələrin iştirakı ilə keçirilən rəsmi görüşlərin, həmçinin Konqresin keçirdiyi dinləmələrin stenoqramları vardır. Həmin stenoqramları Konqresin və ABŞ dövlət idarələrinin çoxsaylı internet-saytlarından əldə etmək mümkündür.

ABŞ-ın Rusiya siyasətinin ayrı-ayrı istiqamətləri barəsində faktoloji və analitik xarakterli geniş informasiyanı dövlət orqanlarının proqram və sorğu xarakterli materiallarından[25], həmçinin qeyri-kommersiya

---

[24] Nəsirov E. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı: Elm və Təhsil, 2010, 392 s; Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı: Qanun, 1998, 136 s.

[25] Review of U.S. assistance programs to Russia, Ukraine and the New Independent States. Committee on International Relations House of Representatives. One hundred fifth Congress second session. March 26, 1998.
U.S. Government Assistance and Cooperative Activities with Eurasia. FY 2002 Annual Report. Submitted pursuant to Section 104 of the FREEDOM Support Act (Public Law 102-511). January 2003.
CRS Report for Congress "US Assistance to the Former Soviet Union", 2007.
USAID Program and Operations assessment report. No.12 Washington, DC. 1996
USAID Congressional Presentation. Russia. FY 1999.
Foreign Assistance: International Efforts to Aid Russia's Transformation Had Mixed Results. November 2000. General Accounting Office, Washington D.C.

təşkilatlarının[26] fəaliyyəti barəsində açıq hesabatlardan əldə etmək olar. ABŞ-Rusiya münasibətlərinə dair problemlər barədə Konqresdə hazırlanmış analitik materiallar da dəyərli informasiya və dərin analiz mənbəyi kimi əhəmiyyətlidir[27].

Rusiyanın "Независимая газета", "Независимое военное обозрение", "Российская газета", "Известия", "Коммерсант", ABŞ-ın "Washington Post", "New York Times", "Los Angeles Times", "Wall Street Journal", "Financial Times", "International Herald Tribune", "Time" və s. kimi dövri mətbuatda nəzərdən keçirilən tarixi dövr çərçivəsində ABŞ-Rusiya münasibətləri barədə əks olunmuş vacib faktlar və arqumentlər dissertasiyanın yazılması zamanı mühüm mənbəşünaslıq bazası rolunu oynamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi 1991-ci ildən 2005-ci ilədək ABŞ və Rusiya arasındakı siyasi-diplomatik, iqtisadi və humanitar sahələr üzrə yeridilən kursun hüquqi-siyasi əsaslarını, istiqamətlərini, formaları və reallaşdırılma mexanizmlərini araşdırmaqdan, tədqiqat predmeti ilə bağlı elmi-nəzəri mühakimələr, ideyalar, praktiki

---

Nonproliferation and Threat Reduction Assistance: U.S. Programs in the Former Soviet Union. June 26, 2006 . CRS Report for Congress RL31957 Preventing Proliferation of Biological Weapons: U.S. Assistance to the Former Soviet States. CRS Report RL31368 U.S. General Accounting Office. Weapons of Mass Destruction, Reducing the Threat From the Former Soviet Union: An Update. GAO/NSIAD-95-165, June 1995. Washington, D.C. NNSA FY2009 Budget request, DOE/CF-024. Volume 1. February 2008.

[26] Strengthening Local Democracy in the Former Soviet Union: 1990-1992. National Democratic Institute for International Affairs. Washington D.C. 1992.

[27] Russia's Road to Corruption. Speaker's Advisory Group on Russia. U.S. House of Representatives. Report. 2000.

tövsiyələr irəli sürməkdən, bu prosesi elmi-analitik, nəzəri-konseptual və praktiki xarakterli yanaşmalarla təmin etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- yeni dünya nizamı kontekstdə ABŞ-Rusiya münasibətlərinin qiymətləndirilməsi;
- həm ABŞ, həm də Rusiyanın xarici siyasət maraqlarının aşkar edilməsi və onların elmi təhlil süzgəcindən keçirilməsi;
- ikitərəfli münasibətlərin nəzəri məsələlərinin tədqiqi və müvafiq qiymətləndirilmənin yerinə yetirilməsi;
- xarici siyasətdə və təhlükəsizlik sahəsində əməkdaşlığın praktiki məsələlərin analizinin aparılması;
- iki dövlət arasında ticarət-iqtisadi və humanitar sahələrdə münasibətlərin formalaşmasını şərtləndirən amillərin aşkar edilməsi;
- ABŞ-ın qlobal güc mərkəzi kimi Cənubi-Qafqaz siyasəti və onun reallaşdırılması mexanizmlərinin tədqiqi;
- Rusiyanın regional güc mərkəzi kimi Cənubi Qafqazda milli maraqlarının üzə çıxarılması və onların analizi.

**Dissertasiyanın nəzəri-metodoloji əsasları** irəli sürülmüş məqsəd və vəzifələrlə müəyyən edilmişdir. Bu, ilk növbədə, tarix elminin metodlar sistemindən ibarətdir. Tədqiqat işində sosial-siyasi proseslərin dərk olunmasının ümumelmi metodları, sistemli yanaşma, struktur-funksional, tarixi və siyasi analiz, deduktiv və induktiv tədqiqat metodlarından geniş istifadə olunmuşdur

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- Azərbaycan tarix elmində ilk dəfə olaraq ABŞ və Rusiya arasındakı münasibətlərin bir sıra vacib istiqamətləri üzrə kompleks analiz aparılmış və onların nəticələri üzə çıxarılmışdır;
- ABŞ və Rusiya arasındakı münasibətlər spesifik xüsusiyyətlərinə görə mərhələlərə bölünmüş, onların fərqləndirici cəhətləri tutarlı faktlar və arqumentlərlə əsaslandırılmışdır;
- İkitərəfli münasibətlərin nəzəri-konseptual və praktiki məsələləri ilə əlaqədar elmi-analitik analizi aparılmış və onların müvafiq qiymətləndirilməsi verilmişdir;
- Vaşinqton və Moskva arasındakı rəsmi münasibətlər siyasi və hərbi təhlükəsizlik kontektstində analiz edilmiş və həmin sahələrdə öz həllini gözləyən kifayət qədər problemlərin mövcudluğu reallığı əsaslandırılmışdır;

- ABŞ-Rusiya münasibətlərinin iqtisadi və humanitar sahələrdə assimmetrik xarakter daşıdığı faktlarla əsaslandırılmış, bu vəziyyətin saxlanılmasının əlaqələrin real vəziyyəti və perspektivlərini sual altına qoyduğu ilə bağlı mühakimələr irəli sürülmüş və elmi baxımdan təhlil edilmişdir.

- Hər iki dövlətin Cənub Qafqaz siyasətinin mahiyyət və məzmunu, həmçinin onların reallaşdırma mexanizmləri ilə bağlı məsələlər elmi təhlillər müstəvisinə çıxarılmış, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə rəsmi Vaşınqton və Moskvanın yeritdiyi siyasətin məğzi və onun ayrı-ayrı detalları araşdırılmışdır.

- Azərbaycan tarix elmində ilk dəfə olaraq dissertasiyada tədqiqat predmeti ilə bağlı xaricdə dərc edilmiş yeni mənbə və ədəbiyyatlar elmi dövriyyəyə cəlb edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** onun aktuallığı, yeniliyi və nəticələrinə əsaslanaraq müəyyən edilmişdir.

Tədqiqat işinin materialları, müddəaları və nəticələri:

- Azərbaycanın müasir tarixinə, beynəlxalq münasibətlər və xarici siyasət problemlərinə həsr edilən elmi əsərlərin yazılışında;

- Avropa və Amerika ölkələrinin müasir tarixinə həsr edilmiş dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların hazırlanmasında;

- Azərbaycanın milli təhlükəsizlik konsepsiyasını, hərbi doktrinasını, həmçinin hazırlanmaqda olan xarisi siyasət konsepsiyasını yeni elmi-nəzəri müddəalar ilə zənginləşdirilməsində;

- ali tədris müəssisələrində müvafiq profil üzrə mühazirə-məşğələlərin və xüsusi kursların keçirilməsində faydalı ola bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universitetinin "Avropa və Amerika ölkələrinin yeni və ən yeni tarixi" kafedrasının iclasında müzakirə edilmiş və müdafiəyə tövsiyə edilmişdir

Dissertasiyanın məzmunu və ondan irəli gələn əsas müddəalar haqqında elmi seminarlarda, respublika elmi konfranslarında, həmçinin beynəlxalq simpoziumlarda məruzələr edilmişdir.

Bundan əlavə müxtəlif elmi toplularda məqalələr və tezislər nəşr edilmişdir. Dərc edilmiş məqalələr və tezislər bütün fəsilləri və işin ümumi məzmununu əhatə edir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, 3 fəsil, 6 yarımfəsildən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Girişdə problemin elmi aktuallığı və əhəmiyyəti əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, mövzuya dair bir çox ədəbiyyatların təhlili verilmiş, dissertasiyanın elmi yeniliyi və praktiki əhəmiyyəti şərh olunmuşdur.

Birinci fəsil **"ABŞ və Rusiyanın milli maraqları və onların həyata keçirilməsi mexanizmləri"** adlanır və iki yarımfəsildən ibarətdir. **Bu fəslin "İkitərəfli münasibətlərin nəzəri məsələləri və onların xüsusiyyətləri"** adlı birinci yarımfəslində hər iki dövlətin milli maraqlarının geniş spektr məsələlər üzrə fərqli konfiqurasiyaya malik olduğu mülahizəsi nəzəri və əməli yanaşmalarla sübuta yetirilmişdir. Bu prosesdə əldə olunan elmi qənaətə görə, Rusiyanın strateji məqsədi XXI əsrdə aparıcı dövlətlər iyerarxiyasında müstəsna mövqeyini təmin etmək olsa da, bu yolda atılacaq addımların zərgər dəqiqliyi ilə hesablanmasından çox şey asılıdır. Əslində Rusiyanın üzləşdiyi problem-dünya nizamında öz layiqli yerini tapmaq məsələsi ona görə belə mürəkkəbdir ki, bir yandan dövlətin iqtisadi gücünün bərpası və inkişafı məqsədlərini, digər tərəfdən isə bu məqsədə nail olmaq yolunda investisiya, kredit və s. imkanları ilə yardımçı olacaq Qərblə ziddiyyətlərin mümkün qədər yumşaldılmasını zəruri edir. Deməli, bu vəziyyətdə Rusiya-Qərb münasibətləri üçün əməkdaşlıq səviyyəsi xarakterik ola bilər, strateji tərəfdaşlıq və ya müttəfiqlik münasibətləri istisana olunur. Bu, xüsusilə də Rusiya-ABŞ münasibətlərinə aiddir. Moskva-Vaşinqton münasibətləri ən azı ona görə bərabər tərəfdaşlıq kimi qiymətləndirilə bilməz ki, tərəflərdən biri (Rusiya) "soyuq müharibə"dən məğlub kimi, digəri isə (ABŞ) qalib kimi çıxmışdır. Tarix hələ məğlub və qalib tərəflər arasında bərabər tərəfdaşlıq münasibətlərinin mövcudluğu haqqında məlumatı hifz edib saxlamamışdır. Məsələyə, bu kontekstdə yanaşdıqda, Rusiya və ABŞ arasında yalnız əməkdaşlıq münasibətlərinin mövcudluğundan bəhs etmək mümkündür. Əməkdaşlıq üçün praqmatik maraqların üst-üstə düşməsi kifayətdir. Məsələn, "soyuq müharibə" illərində SSRİ və ABŞ nüvə müharibəsi təhlükəsinin qarşısının alınması, silahlar üzərində nəzarət, kütləvi qırğın silahlarının yayılmaması və s. məsələlərdə əməkdaşlıq edirdilər. Tərəfdaşlıq daha geniş xarakteristika ilə səciyyələnir. Tərəfdaşlıq üçün tərəflər arasında daxili və xarici siyasəti müəyyən edən fundamental prinsiplərdə razılaşmanın olması zəruridir. Bu, geosiyasi və geoiqtisadi xarakterli strateji maraqların üst-üstə düşməsi və ya yaxınlığı deməkdir. Bu strateji tərəfdaşların (müttəfiqlərin) üçüncü

tərəfə münasibətdə ümumi siyasətinin formalaşdırılması deməkdir. Lakin Rusiya və ABŞ arasında münasibətlərin belə modeli formalaşmamışdır.

Bu fəslin **“Xarici siyasət və təhlükəsizlik sahəsində ikitərəfli münasibətlərin praktiki məsələləri”** adlı ikinci yarımfəslində ABŞ-Rusiya münasibətlərinin praktiki xarakterli məsələləri şərti olaraq bölünmüş 3 istiqamət üzrə öyrənilmişdir. Birinci mərhələ 1991-1993-cü illəri əhatə edir. Bu mərhələ tərəflərin əməkdaşlığa və tərəfdaşlığa hazır olduqlarının nümayişi ilə yanaşı, bir-birinə qeyri-adekvat yanaşmaları ilə də diqqəti cəlb edir. 1991-1993-cü illərdə hər iki dövlət “soyuq müharibə” dövründən miras qalmış dərin ideoloji, iqtisadi, siyasi qarşıdurmanın aradan qaldırılması istiqamətində cəhdlər göstərdilər. Məhz ötən əsrin 90-cı illərinin əvvəllərində iki dövlət arasında bir sıra fundamental məsələlər üzrə razılaşmalar əldə edildi. Bunlara strateji silahlar üzərində nəzarət sahəsində, ideoloji və siyasi qarşıdurmanın yumşaldılması istiqamətində uğurlar, işgüzar və mədəni təmasların genişlənməsi, ABŞ-ın iqtisadi yardımları və s. daxildir.

İkitərəfli münasibətlərdə qeydə alınan bütün bu müsbət tendensiyalara baxmayaraq, nə Rusiya, nə də ABŞ bir-birlərinə münasibətdə xarici siyasətləri qarşısında duran əsas məqsədlərə nail ola bilmədilər. Artıq ikitərəfli münasibətlərin birinci mərhələsinin sonunda məlum oldu ki, Rusiya başlıca məqsədlərindən birinə- demokratik dövlət olaraq bərabər əsaslarla ABŞ-ın strateji tərəfdaşına çevrilməyə nail ola bilmədi.

Eyni zamanda Corc Buş, Ceyms Beyker, Bill Klinton və digər yüksək ranqlı rəsmilər tərəfindən “demokratiyanın müdafiəsi” konsepsiyası çərçivəsində bəyan edilmiş ABŞ-ın xarici siyasətinə verməklə Rusiyada demokratik, açıq cəmiyyət yaradılmasına və iqtisadiyyatda irəliləyisin əldə edilməsinə nail olmaq mümkün olmadı. Hər iki tərəfin bir-birinə münasibətdə buraxdıqları səhvlər və yanlışlıqlar son nəticədə qarşılıqlı etimadsızlıq mühitinin formalaşmasını şərtləndirdi. ABŞ-ın Karnegi Fondunun analitikləri 1990-cı illərin sonunda etiraf etdilər ki, rəsmi Vaşinqton və onun Qərb üzrə müttəfiqləri Rusiyaya münasibətdə bir sıra səhvlərə yol vermişlər:

1) 1991-1992-ci illərdə Rusiya liberallarının radikal islahatlar həyata keçirməklə bağlı siyasi potensialını olduğundan yüksək qiymətləndirmişlər;
2) Səhv iqtisadi proqramdan istifadə etmişlər;
3) Lazımi səviyyədə yardım göstərməmişlər.

Rusiyanın da xarici siyasəti, o cümlədən ABŞ-a ünvanlanmış vektoru bir sıra ciddi qüsurlardan xali olmamışdır. Onlardan biri, ilk növbədə, xarici siyasətdə qeyri-müəyyənliyin, aydınlığın olmamasıdır. Tanınmış ABŞ politoloqu M. Mandelbaumun fikrincə, "Kommunizmin Avropada məhvindən sonra SSRİ-nın varisi olan Rusiyanın xarici siyasəti nəinki aydınlığı ilə fərqlənmədi, həm də təsir gücünün məhdudluğu ilə seçildi. Bu siyasətin mahiyyəti az anlaşılan idi. Onu hətta üzə çıxarmaq belə çətin idi. Yeni Rusiya dövlətinin beynəlxalq məqsədləri hansılar idi?". Təbii ki, bu reallıq fonunda Rusiyanın beynəlxalq aləmdə davranışını proqnozlaşdırmaq çətin olurdu və bu da istər-istəməz ABŞ-la stabil münasibətlərin formalaşmasına mane olurdu.

Rusiya bir çox hallarda Qərbdən subsidiyalar və kreditlər almaq naminə, xarici siyasətin qarşısında duran bir sıra digər vəzifələrin (xüsusilə də təhlükəsizlik sahəsində) yerinə yetirilməsinə biganə yanaşırdı. Hətta demək olar ki, bir sıra hallarda məqsəd və vasitələr yerlərini dəyişmişdilər. Başqa sözlə, xarici yardımlar və Beynəlxalq Valyuta Fondundan kreditlər almaq bir məqsədə çevrilmişdi, iqtisadi islahatlar isə bu məqsədə xidmət edən vasitəyə.

Hər iki amil-milli maraqların əksinə gedərək "ümumbəşəri dəyərlərə" üstünlük vermək və istənilən yolla Qərbin maliyyə dəstəyinə nail olmaq siyasəti nəticə etibarilə Rusiyanın ən ciddi xarici siyasət səhvini şərtləndirdi, yəni rəsmi Moskva ABŞ-ın şəksiz liderliyini qəbul etməyə hazır olduğunu bildirdi. Dünya siyasətinin istənilən məsələsində Rusiya ABŞ-ı müdafiə etməyə başladı. Bu davranış tərzi BMT-nin Yuqoslaviya, İraq və Liviya əleyhinə sanksiyalarının tətbiqində, Hindistana raket texnologiyalarının ixracında, habelə SHS-2 üzrə danışıqlarda öz təsdiqini tapdı. Bu dövrdə Rusiya NATO-ya yaxınlaşmaq xəttini dəstəkləyir, "Boyük yeddiliyə" meyl edir, ABŞ-ın "ulduz müharibələri" layihəsinə qoşulmaq istəyirdi. Hətta investisiyalar naminə Cənubi Kuril adalarını Yaponiyaya da güzəştə getməyə meylli görünürdü. Heç şübhəsiz, Rusiya hökumətinin və xarici işlər nazirliyinin belə davranış tərzi ölkə daxilində mənfi ictimai rəyin formalaşmasına gətirib çıxarırdı. Nəticədə cəmiyyət daxilində antiqərb əhvali-ruhiyyə yaranır, ölkənin milli maraqlarının müdafiəsi ilə bağlı çağırışlar daha ucadan eşidilməyə başlanırdı. Bu reallıq, nəticə etibarilə Rusiya-ABŞ münasibətlərində yeni fərqli mərhələnin yaranması üçün münbit şəraiti formalaşdırırdı. İkitərəfli münasibətlərdə "bal ayı" dövrü öz ömrünü başa vururdu. Praqmatik və milli maraqların müdafiəsinə əsaslanan siyasətin konturları cızılmaqda idi.

**“İqtisadi və humanitar sahələrdə ABŞ-Rusiya əməkdaşlığı və onun reallaşdırılması mexanizmləri”** adlanan ikinci fəslin **“ABŞ-Rusiya ticarət-iqtisadi əlaqələrini şərtləndirən amillər və onların əsas istiqamətləri”** adlanan birinci yarımfəslində ikitərəfli iqtisadi münasibətlərin xarakteri və onların reallaşdırılması mexanizmləri ilə bağlı məsələlər elmi təhlillər süzgəcindən keçirilmişdir.

Burada qeyd olunur ki, ABŞ-la Rusiya arasında qarşılıqlı ticarət-iqtisadi əlaqələrin inkişafı üçün müəyyən potensial vardır. ABŞ ənənəvi olaraq Rusiyadan metal, kimya sənayesi üçün xammal, yanacaq idxal etməkdədir. Rusiya da sənayesinin texnologiya parkının yenilənməsi üçün lazım olan maşınlar və avadanlıqları ABŞ-da idxal edir. Demək olar ki, siyasi müstəvidə münasibətlərin hansı səviyyədə olmasından asılı olmayaraq qeyd etdiyimiz istiqamətdə iqtisadi əlaqələrin intensivliyi həmişə saxlanılmışdır.

Rusiya geniş olmasa da, ABŞ-ın xarici iqtisadi əlaqələrində müəyyən rola malikdir və gələcəkdə bu rolun artma perspektivləri kifayət qədər real görünür. Bunu təsdiq edən məqamlardan biri də ondan ibarətdir ki, ABŞ Rusiyadan rəngli və qara metallar, neft və.s məhsulların idxalını artıqmaqdadır. Daha doğrusu bunun obyektiv əsasları vardır. Yəni, ABŞ sənayesinin davamlı inkişafı Rusiya mallarına tələbatı artırır. Deməli, ABŞ-Rusiya iqtisadi əlaqələrinin səciyyəvi xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, ABŞ bazarında təbii olaraq Rusiyanın mövcudluğu üçün əlavə imkanlar yaranmışdır. Öz növbəsində, müşahidələr göstərir ki, ABŞ Rusiya bazarını getdikcə daha yüksək qiymətləndirməyə başlayır. Hazırda ABŞ-ın ixrac etdiyi mallar üçün Rusiya bazarı ən əlverişli bazarlardan hesab oluna bilər. Həmçinin ABŞ üçün Rusiya sərmayyələrin yatırılması cəlbedici amil kimi görünür.

Bu bir həqiqətdir ki, ABŞ-Rusiya iqtisadi əməkdaşlığının tam potensialından lazımi səviyədə istifadə olunmur. Rusiya ABŞ-a ixrac etdiyi xammalın həcmini tədricən yüksəltməklə əhəmiyyətli bir həddə çatdıra bilər. Burada söhbət xüsusən, neft emalı məhsullarından, kimya sənayesi məhsullarından, qara və əlvan metallurgiyadan və s. gedir. Rusiya yüksək ixtisaslı işçi qüvvəsiylə, ABŞ investisiyalarından istifadə edərək, maşın-texnikası məhsullarının buraxılmasını daha da genişləndirərək bu malların daxili və xarici bazara çatdırılması üçün əlavə imkanlar əldə edə bilər. Bu baxımdan, Rusiya üçün də ABŞ sərmayələri mühüm əhəmiyyət kəsb edir. Bu sərmayələr Rusiya milli iqtisadiyyatında əhəmiyyətli təsirə malikdir.

ABŞ sərmayəsinin Rusiya iqtisadiyyatında rolunu xüsusilə sənaye, telekommunikasiya, tibbi texnika və dərmanların istehsalı sahəsində ABŞ sərmayəsi hesabına istehsalın əhəmiyyətli dərəcədə yüksəlməsi faktı əyani şəkildə sübut edir. Məsələn, "Boinq" şirkəti Rusiyanın müvafiq sahəsinə 1 milyard dollar sərmayə qoymuşdur. Amerika sərmayəsi ölkənin neft-qaz sektorunun, yüngül sənayesinin, qida sənayesinin və s. sahələrinin inkişafının əsas hərəkətverici amilidr. Onu qeyd etmək lazımdır ki, ABŞ Rusiyada öz sərmayələrini əsasən istehsalı tez və ucuz başa gələn, qoyulan kapitalın tez bir zamanda geri qaytarılmasını şərtləndirən sahələrə yönəldir. Bu da ondan xəbər verir ki, Rusiya iqtisadiyyatının inkişafını sürətləndirməklə yanaşı, ABŞ sərmayələri onun özünə də böyük gəlirlər əldə etməyə imkan verir. Obyektivlik naminə onu da qeyd edək ki, ABŞ investorları, xüsusilə kiçik və orta firmalar hesab edirlər ki, Rusiyada geniş kommersiya fəaliyyəti üçün kifayət qədər risklər vardr.Bu baxımdan, onlar Rusiyada iqtisadi layihələri maliyyələşdirməkdən boyun qaçırırlar. Rusiyada mövcud olan inzibati əngəllər, korrupsiya, qəbul olunmuş qanunların lazımı səviyyədə işləməməsi və beynəlxalq investorlar üçün Rusiyanın cazibədarlığını ciddi şəkildə azaldır.

Bu fəslin "**Humanitar sahədə ikitərəfli əməkdaşlığın tətbiqi sahələri və onların perspektivləri**" adlı ikinci yarımfəslində isə ABŞ-la Rusiya arasında humanitar sahədə əməkdaşlığın səviyyəsi, inkişaf perspektivləri və ona təsir edən amillər təhlil edilmişdir.

Humanitar sahədə ABŞ-Rusiya əlaqələri daha dərin tarixi və geniş əməkdaşlıq təcrübəsini əhatə edir. Belə ki, hələ ikinci dünya müharibəsinin sona çatmasından sonra elm sahəsində ABŞ-la SSRİ humanitar sahədə əlaqələri öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Məlum olduğu kimi, ABŞ və Rusiya böyük elm və təhsil səviyyəsinə malik olan iki nəhəng dövlətlərdir. Hər bir tərəf bu potensiallarını öz ənənələrinə, mədəni xüsusiyyətlərinə və tarixi inkişaflarının prinsiplərinə uyğun şəkildə inkişaf etdirmişlər. ABŞ-Rusiya əlaqələrinin mövcudluğu təcrübəsi göstərir ki, elm və təhsil sahəsindəki əməkdaşlığa tərəflərin siyasi münasibətlərinin səviyyəsi ciddi təsir göstərir. Bu səbəbdən zaman-zaman humanitar sahədə əməkdaşlığın genişlənməsi və ya məhdudlaşması müşahidə olunmuşdur. Siyasi münasibətlərin vəziyyəti öz növbəsində humanitar əlaqələrin çərçivəsini müəyyən edən amilə çevrilmişdir.

Rusiya ilə ABŞ arasında mədəni əməkdaşlıq tərəflər arasında imzalanmış xüsusi hökumətlərarası memorandum əsasında həyata keçirilir. 1998-ci ilin sentyabrında imzalanmış Memorandum mədəniyyət, humanitar

və ictimai elmlər, təhsil və Kütləvi İnformasiya vasitələri sahəsində əməkdaşlığın prinsiplərini özündə əks etdirir. ABŞ Rusiyanın muzeyləri, mədəniyyət mərkəzləri, bədii kollektivləri və aktorları ilə fərdi layihələr və müqavilələr əsasında əməkdaşlıq edir. ABŞ federal və bələdiyyə hakimiyyətləri mədəniyyət və təhsil sahəsində vətəndaşların, təşkilatların, müəssisələrin birbaşa əlaqələrinin qurulmasına şərait yaradır. Hazırkı mərhələdə ABŞ-Rusiya arasında demək olar ki, mədəniyyətin bütün sahələrində qarşılıqlı səmərəli əməkdaşlıq mühiti mövcuddur. Mədəni əlaqələrdə əlamətdar hadisələrdən biri də 2001-ci ildə Vaşinqtonda "Sankt-Peterburq-2003: mədəni renesans" devizi altında qala-konsert baş tutmasıdır. Belə ki, bu konsert Sankt-Peterburq şəhərinin 300 illik yubileyi ilə əlaqədar olaraq ABŞ-da davamlı tədbirlərin keçirilməsinin əsasını qoymuş oldu. Bu tədbirlər Sankt-Peterburqun dünya mədəniyyətinin mərkəzlərindən biri kimi tanınması baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Bu tədbirlərdən sonra ABŞ mədəniyyət xadimlərinin Sankt-Peterburqun başda olmaqla Rusiyanın iri şəhərlərinə intensiv işgüzar səfərləri başlamışdır.

"Soyuq müharibə"nin başa çatmasından sonra ABŞ və Rusiya arasında təhsil sahəsində əməkdaşlığın inkişafı iki mərhələdə müşahidə olunmuşdur. Birinci mərhələ 1992-2002-ci illəri əhatə edir. İkinci mərhələ 2003-cü ildən sonrakı zaman kəsiyini özündə ehtiva edir. Birinci mərhələdə elm-təhsil sahəsində əlaqələrin inkişafında ciddi fəallıq nəzərə çarpmışdır. Bunun əsas səbəbi ondan ibarət olmuşdur ki, həmin zaman kəsiyində ABŞ-la Rusiya arasında siyasi münasibətlər strateji tərəfdaşlıq səviyyəsində olmuşdur. Yəni, hər iki ölkə beynəlxalq terrorizmə qarşı mübarizəni, nüvə silahının yayılmasının qarşısının alınmasını prioritet kimi müəyyənləşdirmişdir. Bundan başqa, Rusiya elitasının həmin dövrdə qərb həyat tərzinə daha çox meylli olması da əlaqələrin daha intensivliyini şərtləndirmişdir.

Ancaq unutmaq olmaz ki, siyasi motivlər və siyasi konyuktura son nəticədə humanitar əlaqələrin inkişafına da təsirsiz qalmamışdır.Vaşinqton-Rusiya münasibətlərində meydana çıxan siyasi motivli ziddiyyətlər humanitar sahədə əməkdaşlıq mühitinin formalaşması və inkişaf dinamikasına buxovlayıcı təsir göstərmişdir. Buna görə də ikitərəfli humanitar əlaqələrin inkişafı baxımından hər iki dövlətin siyasi rəhbərliyinin üzərinə böyük məsuliyyət düşür. Bu məsuliiyətin fərqində olmaqla, rəsmi Vaşinqton və Moskva humanitar əlaqələrin inkişafına prioritet məsələ kimi baxarlarsa, bu öz-özlüyündə digər sahələrdə də inkişaf meyillərinin artması mənagfeyinə xidmət etmiş olar.

Üçüncü fəsil **“Qlobal və regional güc mərkəzlərinin Cənubi Qafqaz siyasəti”** adlanır. Bu fəslin **“ABŞ-ın xarici siyasətində Cənubi Qafqaz regionu”** adlanan birinci fəslində nəzəri mülahizələr, habelə faktlar və arqumentlər əsasında rəsmi Vaşinqtonun Cənubi Qafqaz siyasətini şərtləndirən amillər, onun həyata keçirilməsi istiqamətləri və bu kontekstdə Rusiya ilə münasibətləri elmi təhlillər müstəvisinə çıxarılmışdır.

Tədqiqat prosesində ilk növbədə ABŞ-ın Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanla münasibətləri təhlil olunmuşdur. Qeyd olunur ki, 1991-ci ilin dekabrın 25-də ABŞ Azərbaycan Respublikasının müstəqilliyini tanımış, 1992-ci ilin martın 18-də ölkəmizlə diplomatik münasibətlər qurmuşdur. 1992-ci il martın 17-də ABŞ-ın Azərbaycanda, 1992-ci ilin noyabrında isə Azərbaycanın ABŞ-da səfirliyi açılmışdır. ABŞ-ın Azərbaycandakı ilk səfiri Riçard Mayls olmuşdur. Burada faktlar və arqumentlər əsasında hər iki dövlətin qarşılıqlı olaraq bir-birinin maraq dairəsində olduğu tezisi əsaslandırılmışdır. Eyni zamanda ABŞ-ın Azərbaycana dövlət səviyyəsində yardımlarını qadağan edən “907-ci bənd”lə bağlı ikitərəfli münasibətlərin anlaşılmaz məqamlarını ehtiva edən məsələlər də tədqiq olunmuşdur.

Burada qeyd olunur ki, 1994-cü ilin sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın Qərbin nüfuzlu dövlətləri, xüsusilə də ABŞ üçün sərfəli iqtisadi tərəfdaşa çevrilməsi prosesinin əsasını qoymuşdur. 1990-cı illərin ikinci yarısında 16 ölkənin aparıcı neft şirkətləri ilə ARDNŞ arasında 26 yeni neft müqaviləsi imzalanmışdır ki, onların böyük bir qismində ABŞ-ın Amoko, Yunokal, Pennzoyl, Eksson, Şevron, Mobil şirkətləri fəal iştirakçı olmuşdur.

1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanmasından sonra Bakı-Vaşinqton münasibətləri keyfiyyətcə yeni mərhələyə keçsə də, Prezident Heydər Əliyevin 1997-ci ilin iyul-avqust aylarında ABŞ-a 12 günlük ilk rəsmi dövlət səfəri qarşılıqlı münasibətlərin geniş spektrinə dair inkişafa səbəb oldu. Daha dəqiq desək, əvvəla bu səfər nəticəsində ABŞ dövlət strukturları və iş adamlarının Azərbaycana maraqlarının artması təmin edildi.

Səfər zamanı 5 mühüm sənəd: Amerika-Azərbaycan münasibətləri haqqında birgə bəyanat; sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında Azərbaycan Respublikası hökuməti ilə Amerika Birləşmiş Ştatları hökuməti arasında müqavilə, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barədə birgə bəyanat, Azərbaycan Respublikası və Amerika Birləşmiş

Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında bəyanat, layihələrin təşviqinə dair baş saziş (Azərbaycan Respublikası hökuməti, Azərbaycan Respublikasının Milli bankı və Amerika Birləşmiş Ştatlarının ixrac-idxal bankı), - imzalanmışdır ki, burada öz əksini tapmış ölkələrarası qarşılıqlı münasibətlərin inkişaf istiqamətləri hər iki tərəfin milli maraqlarına uyğun olub, əməkdaşlığın genişləndirilməsi mənafelərinə xidmət edir.

Bundan savayı, səfər çərçivəsində dəyəri 8 mlrd. ABŞ dolları məbləğində qiymətləndirilən yeni 4 neft müqaviləsi imzalanmışdır ki, ("Şevron", "Ekson", "Mobil", "Amoko" şirkətləri ilə) bu da Azərbaycana investisiya axınının güclənməsinə şərait yaratmış, ABŞ-ın respublikamızın güclü iqtisadi tərəfdaşına çevirilməsi üçün əlverişlı mühit formalaşdırmışdır.

İkitərəfli münasibətlərin təhlili prosesində diqqət mərkəzində saxlanılan məqamlardan biri də təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri olmuşdur. Azərbaycanın beynəlxalq antiterror koalisiyasının fəal üzvü olaraq ABŞ-ı dəstəkləməsi ilə bağlı məsələlər geniş şəkildə tədqiq olunmuşdur.

Prezident İlham Əliyevin ümummili lider Heydər Əliyevin əsasını qoyduğu balanslı və çoxvektorlu xarici siyasət kursunu sürətlə dəyişən dünyanın reallıqlarına adekvat olaraq davan etdirməsi siyasəti ABŞ-la əlaqələrin inkişafı mənafeyinə xidmət göstərir. Bu siyasət müstəqildir və ölkənin milli maraqlarının müdafiəsinə və qorunmasına xidmət göstərir. Prezident İlham Əliyevin 2006-cı il aprelin 25-28-də ABŞ-a ilk rəsmi səfəri ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq istiqamətində möhkəmlənməsi üçün yeni imkanlar açmış oldu. Xüsusilə enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq mühitinin formalaşması və inkişafı yeni mərhələyə keçid etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində ABŞ-ın fəallığının artırılması üçün münbit şərait yaranmış oldu. Hal-hazırda ikitərəfli münasibətlər müxtəlif anlaşılmaz məqamların olması reallığına baxmayaraq, öz inkişaf tempini qoruyub saxlamaqdadır.

Tədqiqat prosesində ABŞ-Ermənistan, ABŞ-Gürcüstan münasibətləri də araşdırılmışdır.

ABŞ-ın region siyasəti kontekstində Ermənistanla münasibətlərinə gəldikdə isə qeyd edək ki, 1991-ci ilin dekabrında Ermənistanın müstəqilliyini tanıyan ABŞ, 1992-ci ildə bu ölkədə səfirliyini açmışdır. 2004-cü ilin mayın 6-da isə ABŞ-ın Yerevanda səfirliyinin yeni binası istifadəyə verilmişdir ki, öz böyüklüyü etibarı ilə bu dövlətin digər

ölkələrdəki səfirliklərindən seçilir. Bu vaxtdan etibarən rəsmi Vaşinqton Ermənistana yardım məqsədilə 1,5 mlrd. dollar vəsait ayrılmışdır. 27 sferada proqramlar tətbiq edilir, xüsusilə də demokratiya, təhsil, vətəndaş cəmiyyəti, səhiyyə və digər sahələrə ABŞ yardımları daha çox edilir. ABŞ Dövlət Departamentinin məlumatına görə 2005-ci maliyyə ilində (2004-cü ilin 1 oktyabrından - 2005-ci ilin 30 sentyabrınadək) Ermənistana 84,4 mln.dollar həcmində vəsait ayrılmışdır ki, ondan da 11,4 mln.dolları demokratiyanın inkişafı proqramlarına, 43,5 mln.dolları iqtisadi və sosial islahatlara, 19,1 mln.dolları təhlükəsizlik və hüquq mühafizə orqanlarına, 1,5 mln.dolları humanitar yardıma, 8,9 mln.dollar isə təşəbbüslərə ünvanlanmışdır.

Bu, hər şeydən əvvəl, onunla bağlıdır ki, Cənubi Qafqazda tam möhkənlənmək istəyən ABŞ burada Rusiyanı özünə strateji müttəfiq seçmiş Ermənistanın ucbatından sözügedən məqsədini sonadək realizə edə bilmir. Regionun iki dövlətinin Gürcüstan və Azərbaycanın ABŞ-la məlum çox yaxın və yaxın münasibətləri fonunda Ermənistanın rusiyapərəst siyasət yeritməsi və faktiki olaraq Moskvanın forpostu rolunu oynaması Vaşinqtonun Cənubi Qafqazı tam nəzarət zonası elan etməsi istəklərini məhdudlaşdırır. Belə şəraitdə rəsmi Vaşinqton Ermənistana münasibətdə «qoğal» siyasətinin yeridilməsini daha məqbul variant hesab edir. Məqsəd isə son nəticədə Ermənistanı Rusiyanın təsir dairəsindən çıxartmaqdan ibarətdir.

ABŞ Gürcüstanın müstəqilliyini bir qədər gec - Z.Qamsaxurdiya 1992-ci ildə siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra tanımışdır. Abxaziya və Cənubi Osetiyada etnik münaqişələr, Meqrelidə vətəndaş müharibəsi Gürcüstanı ABŞ-ın deyil, Rusiyanın təsir dairəsində saxlamağa imkan vermişdir. Lakin Rusiya rəhbərliyinin açıq-aşkar separatçı qüvvələrin tərəfində dayanması və onlara himayədarlıq etməsi rəsmi Tbilisini Vaşinqtona yaxınlaşdıran mühüm amil oldu.

Rusiyanın 1993-cü ilin fevralında "Yaxın Ətraf Doktrinası"nı qəbul etməsi və prezident Boris Yeltsin tərəfindən təsdiqləndikdən sonra qüvvəyə minməsi ilə Gürcüstanın ABŞ və Qərblə olan münasibətləri məhdud xarakter kəsb etməyə başlamışdı. O zaman Gürcüstanın hakim elitası Rusiyanı ciddi təhlükə olaraq görmür və əksinə ölkə daxilindəki etnik qarşıdurmaların və iqtisadi problemlərin həllində Rusiyanın potensialından istifadəyə ümid edirdilər. Bunun əksi ilə bağlı ABŞ da tədbirlər görməkdə maraqlı tərəf təsiri bağışlamırdı. Əlaqələrdə bu cür məhdud əməkdaşlıq 1995-ci ilə qədər davam etdi. 1995-ci ildə Gürcüstanda müəyyən

dəyişikliklər oldu. Artıq hakimiyyət xarici siyasətində Rusiyaya az meyl edir və qərblə əlaqələrini daha da inkişaf etdirirdi. Əlaqələrin bu cür inkişafına təsir edən digər səbəb 19 avqust 1995-ci ildə prezident Edurad Şevardnadzeyə edilən sui-qəsd cəhdi oldu. Gürcü hakimiyyəti bu uğursuz sui-qəsd cəhdini Rusiyanın adı ilə bağlamış və onu təhlükəsizlik faktoru olaraq yox, təhlükə mənbəyi kimi qiymətləndirmişdir. Digər tərəfdən Xəzərin enerji mənbələrinin qərb bazarına çıxarılması üçün Bakıda imzalanmış müqavilələr Gürcüstanın əhəmiyyətini ABŞ üçün artırmışdı. ABŞ Gürcüstana iqtisadi-texniki yardımlar göstərmək siyasətini daha da intensivləşdirmişdi.

11 sentyabr hadisələrindən sonra ABŞ-ın Xəzər regionunda, o cümlədən Cənubi Qafqaz hərbi-təhlükəsizlik baxımından daha da möhkəmlənməsi üçün əlverişli şərait yarandı. 2002-ci ilin aprelində ABŞ və Gürcüstan "Təlim və təchizat" hərbi yardım proqramı çərçivəsində 2000 gürcü hərbçisinin hazırlanmasına dair saziş imzalandı. Razılaşmanın əsas məqsədi Pankisi dərəsində antiterror mübarizənin aparılması üçün kadrların hazırlanması idi. Terrorizmə qarşı «xaç yürüşü» elan edən ABŞ Gürcüstan ərazisində çeçen yaraqlılarına Rusiyanın preventiv zərbə cəhdlərini də pisləmişdir. ABŞ bu məsələdə mövqeyinə belə formulə etmişdir: çeçen terrorçuları və separatçıları ilə mübarizə zəruridir, lakin bu Gürcüstanın ərazi bütövlüyünü qorumaqla və Rusiyanın hərbi müdaxiləsi olmadan həyata keçirilməlidir.

ABŞ hökuməti 2003-cü ildə Gürcüstanda "qızılgül inqilabı"nı müdafiə etməklə qərb yönümlü siyasətçi Mixael Saakaşvilinin hakimiyyətə gəlməsini təmin etmiş oldu və nəticədə etibarı ilə Rusiya ilə son dərəcə kəskinləşən münasibətlər fonunda ABŞ-la əməkdaşlıq özünün yüksək inkişaf səviyyəsinə çatdı. Həmin səviyyənin real təcəssümü olaraq həm Gürcüstanın, həm də ABŞ tarixində ilk dəfə olaraq "Ağ ev"in rəhbəri Gürcüstana rəsmi səfər etdi. ABŞ Prezidenti Corc Buşun Tbilisiyə səfəri 2005-ci il 10 may tarixində oldu. Bu ABŞ dövlətinin Gürcüstanı ən yüksək səviyyədə müdafiə etdiyini bütün dünyaya, o cümlədən Rusiyaya nümayiş etdirdi. Bundan sonra Vaşinqtonun Gürcüstana iqtisadi yardımları daha geniş miqyas aldı. Təkcə bircə faktı qeyd edək ki, 2006-cı ildə Gürcüstan MDB ölkələri içərisində Ukraynadan sonra ABŞ-dan ən çox iqtisadi yardımlar alan dövlətdir. Əgər "Narıncı Ukrayna" üçün ABŞ Prezidenti konqresdə 105,2 mln. dollar vəsaitin ayrılmasını istəmişdirsə, analoji göstərici "Çəhrayı Gürcüstan" üçün 80 mln. dollar təşkil etmişdir.

Tədqiqat predmeti ilə bağlı aparılan təhlillər bu qənaətə gəlməyə əsas verir ki, ABŞ üçün Cənubi Qafqaz regionu formal baxımdan strateji maraq zonası elan edilsə də, rəsmi Vaşinqton həmin maraqların müdafiəsi ilə bağlı "addım-addım" ("step by step") taktikasına üstünlük verir. Radikal addımlardan çəkinir. Rusiya amilini nəzərə alır. Rəsmi Moskva ilə qarşıdurma deyil, "yumşaq hakimiyyət" ("soft power") siyasətinə üstünlük verməklə region siyasətini irəlilətmək taktikasını tətbiq edir. Nə qədər ki, bu arealda ABŞ-ın ehtiyatlı davranışı fonunda Rusiya inhisarçı təsiri bağışlayır. Ancaq xüsusi olaraq vurğulayırıq: nə qədər ki, sürətlə dəyişən geosiyasi reallıqlar fonunda rəsmi Vaşinqtonun Cənubu Qafqaz maraqlarında ciddi dəyişikliklər baş verirsə, bu halda ABŞ bütün regional aktorları təəccübləndirəcək səviyyədə bölgədə fəallaşa bilər. Bu reallığın, zənnimizcə, Rusiya tərəfindən ABŞ-ın postsovet məkanındakı maraqlarına sarsıdıcı zərbə endiriləcəyi halda labüdləşməsi ehtimalı kifayət qədər böyük ola bilər. Xüsusən də, Rusiyanın SSRİ-nin başqa ad altında bərpası ilə bağlı addımları deklorativ deyil, real məzmun kəsb edəcəyi təqdirdə, rəsmi Vaşinqtonun Cənubi Qafqazda əvvəllər müşahidə edilməyən səviyyədə fəallaşacağını proqnozlaşdırmaq mümkündür.

Üçüncü fəslin **"Cənubi Qafqaz Rusiyanın geostrateji maraqları kontekstində"** adlanan ikinci yarımfəslində rəsmi Moskvanın Cənubi Qafqaz regionunda geostrateji maraqları və onun təminatı naminə həyata keçirdiyi xarici siyasətin forma və məzmunu ilə bağlı məsələlər elmi təhlillər müstəvisinə çıxarılmışdır.

Tədqiqat işində qeyd olunur ki, Rusiyanın Cənubi Qafqaz regionunda tarixi ənənə və müasir geosiyasətlə şərtlənən ümumi və xüsusi yanaşma strategiyaları mövcuddur. Rusiya tarixilik baxımından 200 ildən artıq bir dövr ərzində regionda imperiya siyasətini həyata keçirmiş və bu gün də SSRİ-nin varisi olaraq həmin siyasəti beynəlxalq konyukturanı və geosiyası vəziyyəti nəzərə almaqla bu və ya digər şəkildə realizə etmək marağındadır. Rusiyanın ümumi strategiyası belədir. Faktiki dəyişikliklər başlıca mümkün variantlardan hesab olunur.

Bu bir həqiqətdir ki, Cənubi Qafqaz regionunda Rusiya heç də şəksiz və şəriksiz güc mərkəzi deyildir. Belə ki, onun regionla bağlı iqtisadi-ticarət, siyasi və hərbi təhlükəsizlik maraqları oxşar mənafelərin daşıyıcıları olan digər aktorların fəallığı nəticəsində xeyli dərəcədə məhdud təminata malikdir.

Rəsmi Moskva bu reallığın fərqindədir və region siyasətinin konturlarını cızarkən bölgə dövlətlərinə münasibətdə konkret və xüsusi

yanaşma strategiyasını həyata keçirməyə səy göstərir. Belə yanaşma tərzi son nəticədə Azərbaycan, Gürcüstan və Ermənistanla Kreml tərəfindən müxtəlif müstəvilərdə və müxtəlif statuslarda davranılmasını şərtləndirir. Daha dəqiq desək, Rusiya Cənubi Qafqaz dövlətləri içərisində Ermənistana əlahiddə statusda yanaşır, onunla siyasi-hərbi müttəfiqlik münasibətləri yaradır və bu tandem son nəticədə birmənalı olaraq Azərbaycan dövlətçiliyi və ərazi bütövlüyü əleyhinə, eyni zamanda Gürcüstanda separatçılıq hərəkətlərinin genişləndirilməsi mənafeyinə xidmət edir. Nəticədə regionda sabitlik, təhlükəsizlik və inkişaf üçün daimi təzyiq və təhdidlər mühiti formalaşır ki, bu da ABŞ politoloqu Z.Bjezinskinin sözlərilə desək, Cənubi Qafqazı "Avropanın Balkanları"na çevirir. Bu siyasət xüsusilə Rusiyanın ilk prezidenti Boris Yeltsinin dövründə daha real məzmunu ilə seçilirdi

Yalnız dünya miqyaslı siyasətçi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra-1993-cü ilin ikinci yarısından başlayaraq ölkəmizin çevik, tarazlaşdırılmış və çoxvektorlu xarici siyasətinin əsası qoyuldu və Azərbaycanın xarici siyasət prioritetləri içərisində qonşu region dövlətləri ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verildi. Xüsusilə də Azərbaycanın 1993-cü il sentyabrın 24-də MDB-yə daxil olması Bakı-Moskva münasibətlərinin yaxşılaşdırılmasına ünvanlanmış siyasi gedişi idi. Nəticə heç də özünü çox gözlətmədi. 1994-cü il mayın 12-də Azərbaycan və Ermənistan arasında münaqişə zonasında atəşkəsə dair müqavilənin imzalanması baş tutdu. Atəşkəs rejimi ayrı-ayrı hallar istisna olmaqla bugünədək davam edir.

Bakı-Moskva münasibətləri 2000-ci ildə Vladimir Putinin Rusiyada siyasi hakimiyyətə gəlişindən sonra praqmatik xarakter aldı. Onun 2001-ci ilin yanvarında Bakıya səfəri, 2002-ci ilin 24-26 yanvarında isə Prezident Heydər Əliyevin Rusiyaya rəsmi səfəri ikitərəfli münasibətlərdəki müsbət meylləri daha da möhkəmləndirdi.

2003-cü ildə İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ikitərəfli Azərbaycan-Rusiya münasibətləri öz inkişafının ən yüksək səviyyəsinə çatmışdır. 2006-cı ildə Azərbaycanda Rusiya ilinin, Rusiyada isə Azərbaycan ilinin keçirilməsi qarşılıqlı münasibətlərdə etimad mühitinin möhkəmlənməsindən xəbər verən hadisələrdir.

Bütün bunlara baxmayaraq Azərbaycanın Avropaya inteqrasiya proseslərinin güclənməsi, ABŞ-ın regionda siyasi, iqtisadi və hərbi mövcudluğunun getdikcə dinamik xarakter alması, NATO və Avropa İttifaqının Cənubi Qafqazla bağlı xüsusi proqramlar hazırlaması və ardıcıl olaraq həyata keçirməsi, habelə Türkiyə və İranın bölgə ilə bağlı

maraqlarının təminatı istiqamətində atdıqları siyasi gedişlər, heç şübhəsiz, rəsmi Moskvanı qıcıqlandıran proseslərdir. Bu proseslər öz-özlüyündə regionda maraqlı dövlətlərin qarşılıqlı etimad formatlarının formalaşmasını mümkün edir. Məsələn, ABŞ-Gürcüstan-Azərbaycan qeyri-rəsmi formulu ilə Türkiyə-Azərbaycan-Gürcüstan qeyri-formal üçlüyü paralel istiqamətdə fəaliyyətdədir və onlar Rusiya-Ermənistan və ona paralel olan İran-Ermənistan istiqamətləri ilə ilə toqquşur. Nəticədə bir-birinə zidd olan Vaşinqton-Ankara-Tbilisi-Bakı və Moskva-Tehran-İrəvan "siyasi üçbucaqları" formalaşır. Bu reallıqda Tbilisi siyasi təyinatının seçimində birmənalı olaraq Qərbə yaxınlıq edirsə, Azərbaycan, Rusiya və İranla da yaxın siyasi-iqtisadi münasibətlərin saxlanılmasına maraq göstərir.

Rusiya amilinin regionda proseslərin axarına ciddi təsir imkanlarına malik olması faktı tam olaraq regionda formalaşmış geosiyasi şəraitin indikatoru kimi dəyərləndirilə bilər. 5 günlük "avqust müharibəsi" və onun məlum nəticələri, xüsusilə də ABŞ başda olmaqla Qərb dövlətlərinin bu hadisələr dövründə təəccüb doğuran "dişsizlik" nümayiş etdirməsi belə bir qənaətə gəlməyə əsas verir.

Olduqca zəifləmiş XX əsrin 90-cı illərinin Rusiyası ilə XXI əsrin əvvəllərinin qüvvətlənmiş Rusiyası arasında güc potensialı və ona adekvat davranış tərzi arasında olduqca böyük fərq vardır. Əgər ABŞ və müttəfiqləri bu reallığı düzgün qiymətləndirib, zamanında müvafiq siyasi-diplomatik və hərbi-təhlükəsizlik addımları ata bilsələr, sürətlə dəyişməkdə olan geopolitik vəziyyətin qalibi olacaqları şübhə doğurmayacaq, əks halda isə SSRİ-nin varisi olan Rusiya ilə yenidən "soyuq müharibə" dövrünə qayıdış labüd görünür. Bu halda Rusiyanın ilk növbədə "yaxın xaric" adlandırdığı postsovet ölkələrini diktə yolu ilə öz təsir zonasına bu və ya digər ad altında salması təhlükəsi real ola bilər. Bu, tədqiqat prosesində gəldiyimiz əsas nəticələrdən biridir.

Dissertasiyanın "Nəticə" hissəsində isə tədqiqata yekun vurulmuş, elmi-analitik ümumiləşdirmələr aparılmış, habelə problemin həlli mənafeyinə xidmət göstərən təklif və tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində əksini tapmışdır:**

1. Bill Klinton administrasiyası dövründə Amerika-Rusiya münasibətləri /Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü münasibətilə gənc tədqiqatçıların elmi – praktik konfransının materialları. Bakı, 2008, s.92-98.

2. Amerika və Rusiya əməkdaşlığının formalaşması // Tarix və onun problemləri. Nəzəri, elmi metodik jurnal. Bakı, 2009, №1-2, s.210 -216.

3. Amerika – Rusiya münasibətləri XXI əsrin əvvəli // Tarix və onun problemləri. Nəzəri, elmi metodik jurnal. Bakı, 2009, № 4, s.271-279.

4. Amerika Rusiya münasibətlərində tərksilah problemləri // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2010, №2, s.154-159.

5. Amerika ilə Rusiyanın terrorizmə qarşı birgə mübarizədə əməkdaşlığı // Tarix və onun problemləri. Nəzəri, elmi metodik jurnal. Bakı, 2010, №1, s. 191-202.

6. Rusiya Federasiyası və ABŞ-ın humanitar sahəsində əsas istiqamətləri əməkdaşlığı //XABARŞI VESTNİK seriya " tarix və sosial-siyasi elmlər" № 3// Almata, 2011, s.159-162.

7. Ermənistan – Azərbaycan münaqişəsinin nizamlanmasında. ATƏT-in rolu / Elmi diskussiya: sosiologiya problemləri, siyasətşünaslıq, fəlsəfə, tarix. I Beynəlxalq elmi-praktiki konfransın materialları. Moskva, 2012, s. 61-66.

**Э.А. Багиров**

# АМЕРИКАНО-РОССИЙСКИЕ ОТНОШЕНИЯ (1991-2005 гг.)

## РЕЗЮМЕ

Исследовательская работа состоит из введения, 3 глав (6 подглав), заключения и списка использованной литературы.

Во введении обоснована научная актуальность и значение проблемы, определены цели и положения исследования, проведен анализ многих источников, объяснена научная инновативность и практическое значение диссертации.

**Первая глава** “ Национальные интересы США и России и механизмы их реализации” состоит из двух параграфов. В первом параграфе под названием “Теоретические задачи двухсторонних отношений и их особенности”, показан широкий спектр национальных интересов двух государств, доказаны различные теоретические предположения и практические подходы. Во втором параграфе – “ Практические задачи двухсторонних отношений в области внешней политики и безопасности” в трех направлениях были изучены задачи практического характера Американо-Российских отношений.

**Вторая глава** «Американо-Российское сотрудничество в экономической и гуманитарной областях и механизмы их реализации” состоит из двух параграфов. Первый параграф «Условные факторы и основные направления Американо-Российских торгово-экономических отношений». В первом параграфе рассматриваются двухсторонние экономические отношения стран, делается научный анализ вопросов связанных с природой фильтрующего механизма. Второй параграф “Двухсторонние гуманитарные отношения их перспективы и области применения”. Здесь исследуется уровень американо-российского сотрудничества в гуманитарной сфере, анализируются перспективы развития и влияющих на них факторов.

**Третья глава** посвящена “ Южно – Кавказская политика глобальных и региональных силовых центров”, состоит из двух параграфов. Первый параграф “ Южно Кавказский регион во внешней политике США”, из теоретических соображений дается аргумент на основе фактов и факторов способствующей политике Вашингтона на Южном Кавказе в контексте реализации отношении с Россией. Второй параграф посвящена “Россия в контексте в геостратегических

интересов Южного Кавказа” показана форма и содержания Российского интереса в этом регионе, а далее попытка её влияние на этот регион.

В части “Заключение” подытожено исследование, сделаны научно-аналитические обобщения, а также выдвинуты рекомендации и предложения в интересах решения проблемы.

**E.A.Bagirov**

## USA-RUSSIAN RELATİONS (1991-2005)

## SUMMARY

Research paper consists of introduction, three chapters (6 paragraphs), conclusion and litereture review. In the introduction the importance and scientific actuality of the problem was grounded, the purpose and objectives of research werw identified, scientific relevance and importance of the problem werw set, the analysis a lot of literature on the subject were identified, the dissertation presents a scientific novelty and practical significance.

. First chapter is dedicate to "USA and Russian, their national interest and implementation them in mechanism" consist of the two paragraphs. 1§ Bilaterial relation it theoretical question and it signification. This paragraph is generate wide spectrs of the two countries their national interest, where is proved various theoretical and practical accsess. Second paragraph 2§ "Bilaterial relation in the field of foreign policy and security it practical problem. In this paragraph American-Russian relation are having practical character, and some of questions divide into three ways where it's good investigate.

Second II chapter is dedicate to "American-Russian economy humanitarian collaboration and the ways of realization its mechanism" consist of two paragraph. First paragraph is "American – Russian trading economy collaboration of conditional factors. There are considered bilaterial economy relation of these two countries, there are also had done science analize of some question concerned to with mechanism. Second paragraph is "Bilaterial humanitarian relation and the ways of its using and perspectives", there are investigating the condition of American-Russian collaboration in humanitarian sphere, followed their perspectives and advanced in its core of influentional factors.

Third chapter is dedicating to "South-Caucaus policy in globalization and regional center power", consist of two paragraphs. First paragraph is "South Caucaus region in USA policy", from theoretical thoughts there are given an argument based on facts and factors which is casualities politics of Washington at South Caucaus in context of realization communication with Russian. Second paragraph is "Geostrategy interest of Russia in context of South Caucausus region" there displayed forms and maintance of Russian interest in this region and also its efforts to influence.

In the conclusion here summarized investigation, made science-analize previews and also provides recommendation in interest of resolve problems.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЭЛЬШАД АЛТАЙ оглу БАГИРОВ**

# АМЕРИКАНО - РОССИЙСКИЕ ОТНОШЕНИЯ (1991-2005 гг.)

Специальность: 5502.01 –Всеобщая история

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2015**